**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**Azərbaycan Respublikasının**
**Təhsil Nazirliyinin**
**F-343 nömrəli 09.07 2020-ci il**
**tarixli qərarı ilə təsdiq**
**edilmişdir.**

ƏSLİ İLƏ DÜZDÜR
SƏNƏDLƏR ÜÇÜN

# BAKALAVRİAT SƏVİYYƏSİNİN (ƏSAS (BAZA) ALİ TİBB TƏHSİLİNİN) İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı: 050408 - Menecment**

**BAKI – 2020**

# BAKALAVRİAT SƏVİYYƏSİNİN 050408 - Menecment İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI

## 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin **"050408 - Menecment"** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:
- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və **"050408 - Menecment"** ixtisası üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kompetensiyaları

*2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:*
- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə bacarıqlarına;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;

- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına.
- Mürəkkəb sistemləri təhlil etmək, əlaqələri aşkarlayıb dərk etmək, müxtəlif sahələrdə və fərqli səviyyələrdə sistemlər arasında əlaqə prinsiplərini dərk etmək, qeyri-müəyyən şəraitdə fəaliyyət göstərmək (sistemli düşüncə kompetensiyası).
- Gələcəyin (mümkün, ehtimal edilən və arzu olunan) fərqli variantlarını dərk etmək və qiymətləndirmək qabiliyyəti, gələcək haqqında aydın fikir formalaşdırmaq, fəaliyyyətin mümkün nəticələrini qiymətləndirmək, risk və baş verən dəyişiklkləri nəzərə almaq (proqnostik kompetensiya).
- Yerli və daha yüksək səviyyələrdə davamlılığın təmini və yüksəldilməsinə yönəldilmiş novator qərarların kollektiv işlənməsi və gerçəkləşdirilməsi bacarığı (strateji baxış kompetensiyası).
- Başqalrından öyrənmək, digərlərinin tələbatlarını, fikirlərini və hərəkətlərini anlamaq (empatiya)qrupda yaranan konfliktləri həll etmək, problemlərin həllinə yönəlik kollektiv və çoxtərəfli əməkdaşlıqda iştirak (kollektiv iş kompetensiyası).
- Qəbul edilmiş norma, yanaşma və fikirləri təhlil etmək, öz baxışlarını və fəaliyyətini kritik qiymətləndirmək, davamlı inkişaf məsələləri ilə bağlı diskussiyalarda öz mövqeyini müdafiə etmək (kritik düşüncə kompetensiyası).
- Cəmiyyətdə öz rolunu kritik qiymətləndirmək (özünüdərketmə kompetensiyası).
- Mürəkkəb problemlərin həlli məqsədilə problemə yönəlik fərqli yanaşmalardan istifadə bacarığı, sadalanan kompetensiyalar əsasında kompleks və ədalətli qərarların qəbulu (problemin kompleks həlli kompetensiyası).
- Fərqli baxış və yanaşmaların dərk edilməsi və kompleks təhlili, geniş inteqrasiya və dünyada artan müxtəlifliyin fərqli perspektivlərinin ümumiləşdirilməsi (multikultural yanaşma və açıqlıq).
- Sahələrarası yanaşmaların formalaşdırılması və qərarların qəbulu bacarığı (sahələrarası kommunikasiya).

2.2. *Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:*

- İqtisadi nəzəriyyənin əsaslarını, müəssisə və fərd səviyyəsindəki davranışları, əsas sosial-iqtisadi göstəriciləri, problemləri və prosesləri bilmək; (PK-1)
- Fərqli rəqabət sistemlərindəki bazarların xüsusiyyətlərini, müxtəlif bazar tiplərində firmaların fəaliyyət mexanizmini, qarşılıqlı əlaqələrin fərqli senarilərini bilmək; (PK-2)
- Makroiqtisadi terminologiyanı tam şəkildə mənimsəmək, açıq iqtisadiyyatı təhlil edə bilmək və nəzəri modellərdən istifadə etməklə təkliflər irəli sürməyi bacarmaq; (PK-3)
- Riyazi üsullar, kəmiyyət və hesablama metodları üzrə bacarıqlara malik olmaq və bu üsul və metodlardan istifadə etməklə optimal qərarlar verə bilmək; (PK-4)
- İşində ümumi porifilli və ixtisaslaşdırılmış proqaram təminatından (Excel, Word, Power Point, Photoshop və ya analitikproqramlardan hər hansı biri ilə (SPSS, Stata, Python kimi proqramlarla) işləmək, sadə analizləri eməyi bacarmaq; (PK-5)
- İqtisadi məlumatların təhlili və sistemləşdirilməsi üçün statistik biliklərə sahib olmaq, kəmiyyət və keyfiyyət məlumatlarını toplamaq, təhlil etmək və proqnozlaşdırmanı bacarmaq; (PK-6)
- İqtisadi məsələlərin empirik tədqiqində ortaya çıxan problemləri həll etmək üçün ekonometrik metodologiyanı öyrənmək və tətbiq edə bilmək; (PK-7)
- İdarəetmə və təşkilatla bağlı baza biliklərə yiyələnmək, ixtisas üzrə məlumatları analitik və sistematik şəkildə təhlil edə bilmək; (PK-8)
- Mühasibatın elmi-nəzəri və konseptual əsaslarına dair baza biliklərə sahib olmaq; (PK-9)
- Maliyyənin elmi-nəzəri və konseptual əsaslarına dair baza biliklərə sahib olmaq; (PK-10)
- İqtisadiyyatı regional və sektorial olaraq təhlil etməyi bacarmaq, kənd təsərrüfatı, sənaye və xidmət sektorunun iqtisadi inkişafdakı rolunu və əhəmiyyətini bilmək, sahə üzrə yeni konseptləri şərh edə bilmək; (PK-11)
- Milli iqtisadiyyatın makroiqtisadi mənzərəsini, sosial-iqtisadi göstəricilərin dinamikasını; iqtisadi siyasətin əsas konturlarını bilmək, sektorial təhlil aparmağı bacarmaq; (PK-12)
- Marketinq fəaliyyətinin elmi-nəzəri və konseptual əsaslarına dair baza biliklərinə sahib olmaq; (PK-13)
- İdarəetmədəki və təşkilatdakı mövcud problemləri qavrama və həlli yollarını təklif etmək ilə bağlı biliklərə sahib olmaq; (PK-14)
- Biznesin idarə edilməsi üzrə müvafiq fəaliyyət və metodları təklif etmək və planlasdırmaq, onların qısa və uzunmüddətli nəticələrini təhlil etmə bacarığına sahib olmaq; (PK-15)
- Karyera barədə ilkin anlayışları, karyera inkişaf fəaliyyətlərini, iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını bilmək, karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də iş üçün müraciət qaydalarını, peşəkar CV, rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacarmaq; (PK-16)

- Vaxtın effektiv idarə edilməsini, stres menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını bilmək, problem həll etmə və qərarvermə texnikalarına, natiqlik bacarıqlarına sahib olmaq, eləcə də komanda işinin qurulmasını bilmək və liderlik prinsiplərinə yiyələnmək; (PK-17)
- Layihələrin idarə edilməsində və digər çox istifadə olunan proqram təminatlarından istifadəni bacarmaq, iş həyatında şifahi və yazılı kommunikasiya vasitələrindən istifadə etməyi bacarmaq; (PK-18)
- İxtisasla bağlı anlayış və terminlərin mənasını bilmək və onları tətbiq etmək bacarığına malik olmaq; (PK-19)
- Sahibkarlıq və təşəbbüskarlıq ruhunun (start-up və s.) formalaşdırılması ilə yanaşı, innovativ və yaradıcı ideyaların hazırlanması ilə bağlı biliklərə sahib olmaq; (PK-20)
- Biznesin əsasları, idarəetmə, istehsalın təşkili, təşkilatı davranış, insan resurslarının idarəedilməsi, mühasibatlıq və maliyyə işlərinin təşkili, marketinq, ictimaiyyətlə əlaqələr sahəsində işlərin həyata keçirilməsi ilə bağlı baza biliklərə sahib olmaq; (PK-21)
- Təşkilatın məqsədlərinin, missiyasının, vizyonunun müəyyən edilməsində iştirak etmək, təşkilatın gələcəyinə dair proqnoz vermə və strateji qərərarların alınması üçün baza məlumatların hazırlanmasını bacarmaq; (PK-22)
- Təşkilati məqsəd və hədəflərə çatmaq üçün təşkilati strukturun optimal formada dizayn edilməsi ilə bağlı biliklərə sahib olmaq; (PK-23)
- Kollektivdə öz həmkarları ilə birgə işləməyi, optimal qərarlar qəbul etməyi və qruplara rəhbərliyi bacarmaq, idarəetmə metodlarına yiyələnmək və onları tətbiq etməyi bacarmaq; (PK-24)
- İstehsal fəaliyyətinin növünün, xarakterinin dəyişməsinə psixoloji və praktiki cəhətdən hazır olmaq və konkret layihələr üzrə işləməyi bacarmaq; (PK-25)
- İdarəetmə formasından asılı olmayaraq istehsal və qeyri-istehsal sferasında fəaliyyət göstərən təşkilatlarda keyfiyyəti idarəetmə sisteminin qurulması işində iştirak etməyi bacarmaq; (PK-26)
- Müəssisə və təşkilatların güclü və zəif cəhətlərini analiz edə bilmək, onların qarşılaşa biləcəkləri imkan və təhditlərin analizini etməyi bacarmaq; (PK-27)
- Təşkilatların məqsədləri doğrultusunda insan resurslarını idarə etmə və onu idarə edərkən qarşıya çıxan problemləri həll etmyi bacarımaq, insan resurslarının idarə edilməsində müasir yanaşmaların tətbiq edilməsi bacarığına malik olmaq; (PK-28)
- İxtisas fəaliyyətinin növünün və xarakterinin dəyişməsinə pedaqoji, metodiki və psixoloji cəhətdən hazır olmaq, fənlərarası layihələr üzərində işləməyi bacarmaq; (PK-29)
- Müəssisənin daxili və xarici fəaliyyət məsələlərinə dair mütəxəssis məsləhətləri vermək və təşkilati funksiyaya əlavə dəyər qatmaq, gələcəyə dair strateji inkişaf planalarının qurulmasına dəstək vermək və dəyişən iş şəraitinə hazır olmaq; strateji məqsədlərə nail olmaq üçün təhlil etmək bacarığına malik olmaq və effektiv dəyişikliklərin səmərəli idarə

edilməsinə və iş prosesinin yaxşılaşdırılmasına aparan yenilikçi dəyərə malik olmaq; (PK-30)

- İdarəetmə uçotu və maliyyə menecmentinə giriş, o cümlədən mühasibat məlumatlarının təşkilati fəaliyyətin idarə edilməsi və nəzarətində rolu, maliyyələşdirmə və büdcə tərtibatı, qərarların qısa və uzun müddətdə qiymətləndirilməsini bacarmaq; (PK-31)
- Potensialın təhlilini, proseslərin dizaynını, proses və biznesə yeniliyin və innovasiyaların tətbiqini və onun idarə edilməsini, eləcə də keyfiyyətin, əməliyyat risklərinin, qiymət və gəlirlərin idarə edilməsini və təhlilini bacarmaq; (PK-32)
- Biznes planın hazırlanması, biznesin qurulması və idarəedilməsi sahəsində işlərin təşkilini bacarmaq, marketinq sahəsində müştəri davranışını, seqmentləşdirməsini, hədəfini, bazar araşdırmaları kimi təməl biliklərə malik olmaq; (PK-33)
- Peşəkar və etik davranışın əsas prinsiplərinə uyğun hərəkət etmək üçün biznes və ictimai mənafe dəyərini təşviq edən müvafiq etik davranış qaydalarını, qanunları və tənzimləmə mexanizmini bilmək və onların həyata keçirilməsini təmin etmək; (PK-34)
- Korporativ idarəetmə və təşkilati dizayn (Corporate Governance and Organisational Design) üsulları haqqında biliklərə sahib olmaq; (PK-35)
- Müasir layihə idarəetməsi yanaşmalarını tətbiq edə bilmək; (Agile, Scrum) ; (PK-36)
- Müxtəlif müəssisə və təşkilatlarda əməliyyatların idarə edilməsi üzrə əsas nəzəri biliklərə, eləcə də proseslərin və əməliyyatların idarə edilməsi üzrə metodların təkmilləşdirilməsi bacarıqlarına sahib olmaq. (PK-37)
- Korporativ mədəniyyətin inkişafı etdirməyə dair biliklərə sahib olmaq; (PK-38)
- Inkişaf etmiş məlumat analitikasını (vizualizasiya, xətti və logistik reqressiya), optimal qərarın verilməsi və modelləşdirmə haqqında biliklərə sahib olmaq; (PK-39)
- Risklərin, onların səviyyəsinə təsir edən amillərin qiymətləndirilməsini bacarmaq və risklərin idarə edilməsi istiqamətində biliklərə sahib olmaq; (PK-40)

## 3. Təhsil Proqramının strukturu

3.1. **"050408 - Menecment"** ixtisası üzrə Təhsil Proqramı 240 (4 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

*Cədvəl 1*

| Fənlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | **30** |
| 1 | **Azərbaycan tarixi**<br>*Bu fənn ən qədim dövrlərdən başlayaraq müasir dövrədək Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun mərhələlərini ardıcıllıqla öyrənir. Tələbələrimizdə vətənpərvərlik hissini aşılamaq üçün bütün tarixi mərhələlərdə yaranmış dövlətlərin siyasi tarixi, ayrı-ayrı şəxsiyyətlərin qəhrəmanlıq nümunələri tarixi faktlar əsasında şərh olunur. Tarixi keçmişimizdən yararlanmaqla yanaşı əsas məqsəd tələbələrdə geniş dünyagörüşünün, vətən sevgisinin, tarixi hadisələri analitik təhlil etmə qabiliyyətinin və hadisələrdən, siyasi proseslərdən düzgün nəticə çıxarmaq qabiliyyətini formalaşdırmaqdan ibarətdir.* | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>*Bu fənn çərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir.* | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>*Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir.* | 15 |
| 4 | **Seçmə fənlər** *(Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.)* | **6** |
| 4.1 | Fəlsəfə<br>Sosiologiya<br>Azərbaycan Respublikasının Konstitisiyası və hüququn əsasları<br>Məntiq<br>Etika<br>Multikulturalizmə giriş | 3 |
| 4.2 | İnformasiya texnologiyaları (ixtisas üzrə)<br>İnformasiyanın idarə edilməsi<br>Sahibkarlığın əsasları və biznesə giriş<br>Politoloqiya | 3 |
| | **İxtisas fənləri** | **120** |
| 5 | **İqtisadiyyata giriş**<br>*Bu fənndə mühüm istisadi anlayışlar izah edilir, bazar iqtisadiyyatının ümumi xarakteristikası verilir və məhdud iqtisadi ehtiyatların səmərəli istifadə olunmasında bazar mexanizminin rolu müəyyənləşdirilir.* | 6 |

| | | |
|---|---|---|
| | *İqtisadi subyeklərin qərar qəbul etməsini şərtləndirən prinsiplər açıqlanır.* | |
| 6 | **Mikroiqtisadiyyat**<br>*İqtisad subyektlərin mənfəəti və faydasının maksimumlaşdırmaq baxımından davranışlarını öyrənir müvafiq bazar rəqabəti modellərindən ev təsərrüfatları və firmaların qəbul etdikləri qərarları şərtləndirən amilləri təhlil edilir,iqtisadi ehtiyatların səmərəli istifadəsində bazar mexanizminin üsütünlükləri və çatışmazlıqları göstərilir.* | 10 |
| 7 | **Makroiqtisadiyyat**<br>*İqtisadi ehtiyatların bötövlükdə rasional istifadə edilməsi baxımından ölkədə dayanıqlı iqtisadi artımın və makroiqtisadi sabitliyin təmin edilməsi, iqtisadi ehtiyatların tam və səmərəli istifadə edilməsi, işsizliyin və inflyasiyanın minimumlaşdırılması, xarici iqtisadi əlaqələrin optimallaşdırılmasının nəzəri və praktiki məsələləri təhlil edilir. Problemlərin həll edilməsində dövlətin iqtisadi siyasətinin istiqamətləri göstərilir* | 10 |
| 8 | **Xətti cəbr və riyazi analiz**<br>*"Xətti cəbr və riyazi analiz" fənni "Xətti cəbr" və "Riyazi analiz" bölmələrindən ibarətdir. "Xətti cəbr" xətti tənliklər, xətti fəza, xətti çevirmə kimi xətti təbiətə malik obyektləri, "Riyazi analiz" isə diferensial, inteqral hesabının köməkliyi ilə funksiya və dəyişən kəmiyyətləri öyrənir.* | 8 |
| 9 | **Ehtimal nəzəriyyəsi və riyasi statistika**<br>*"Ehtimal nəzəriyyəsi və riyazi statistika" fənni "Ehtimal nəzəriyyəsi" və "Riyazi statistika" bölmələrindən ibarətdir. "Ehtimal nəzəriyyəsi" təsadüfi hadisələrin baş verməsinin riyazi qanunauyğunluqlarını, "Riyazi statistika" isə statistik qanunauyğunluqların müəyyən edilməsi məqsədi ilə məlumatın yığılmasının, emalının və müşahidələrin nəticələrinin interpretasiyasının riyazi üsullarını öyrənir.* | 8 |
| 10 | **İKT - baza komputer bilikləri**<br>*Bu fənn iqtisadi yönümdə təhsil alan gələcək mütəxəssislərə müasir informasiya proseslərinin həyata keçirlməsində istifadə olunan üsul və vasitələr haqqında geniş məlumat verir, iqtisadi proseslərin ayrılmaz tərkib hissəsi olan yeni informasiya və İnternet texnologiyaları üzrə müasir bilikləri aşılayır.* | 8 |
| 11 | **Statistika**<br>*Bu fənn keyfiyyətcə müəyyən edilmiş kütləvi sosial-iqtisadi hadisə və proseslərin kəmiyyət tərəfini, onların tərkibini, bölgüsünü, konkret məkan və zaman şəraitində mövcud qarşılıqlı asılılıqlarını və qanunauyğunluqlarını öyrənir.* | 10 |
| 12 | **Ekonometrika** | 10 |

| | | |
|---|---|---|
| | *Bu fənn riyazi və statistik metod, modellərdən istifadə edərək iqtisadi obyektlərin və proseslərin spesifik kəmiyyət və keyfiyyət əlaqələrini öyrənir.* | |
| 13 | **Menecment**<br>*Bu fənn menecmentin əsas funksiyalarını, menecerlərin rollarını, təşkilati quruluşları və onların hər birinin üstün və mənfi cəhətlərini, liderlik növlərini öyrənir, təşkilatlardakı qrup və komanda dinamikasını, təşkilat mədəniyyətini, müxtəlifliyin faydalarını tədqiq edir.* | 7 |
| 14 | **Biznesin əsasları**<br>*Sahibkarlığın əsas iqtisadi–hüquqi institutlarının öyrənilməsi, biznes–planlaşdırmanın əsas aspektlərinin mənimsənilməsi və sahibkarlıq niyyətinin işlənilməsi, sosial-iqtisadi alətlərin sahibkarlıqda fəal surətdə istifadə olunmasını öyrənir* | 6 |
| 15 | **Koorporativ idarəetmə**<br>*Bu fənn korporativ idarəetmənin fəaliyyət sahəsini, tədqiq etdiyi müxtəlif problemləri, korporativ idarəetmə mexanizmlərini və korporativ idarəetmə prinsiplərini öyrənir.* | 6 |
| 16 | **İnsan resurslarının idarəedilməsi**<br>*Bu fənn "İnsan resurslarının idarəedilməsinin", onun məqsəd və hədəflərinin nə olduğunu, yüksək ixtisaslı kadrların müəssisəsəyə necə cəlb edilməsini, seçim prosesinin necə aparılmasını öyrənir müəssisədə performans qiymətləndirilməsi, karyeranın idarəedilməsi, motivasiya vs. kimi funksiyaların işləmə prinsiplərini tədqiq edir.* | 4 |
| 17 | **Əməliyyatların idarəedilməsi**<br>*Bu fənn əməliyyatların planlanmasını, tədarük zənciri və logistika proseslərinin planlaşdırılması və idarə olunmasını və bu proseslərlə əlaqəli informasiya texnologiyalarından istifadə edilməsini öyrənir, istehsalçı və ticarət şirkətlərinin beynəlxalq əlaqələrini yaratmaq və bu əlaqələri qorumaq üçün hansı bilik və bacarıqlara sahib olunmasını tədqiq edir.* | 4 |
| 18 | **Strateji menecment**<br>*Bu fənn təşkilati strategiyaları, xarici və daxili mühit analizinin nəticələri çərçivəsində strategiyaların formalaşdırılması metodlarını öyrənir, icra edilən strategiyaların şirkətin məqsədlərinə nə dərəcədə cavab verdiyini analiz edir. Strateji idarəetmə prosesinin sosial məsuliyyət və etik dəyərlər içərisində həyata keçirilməsinin əsas prinsiplərini tədqiq edir.* | 6 |
| 19 | **Innovasiya menecmenti**<br>*Bu fənn innovasiyaların nəzəri təməlini, innovasiyaların idarə edilməsini, təşkilatlarda innovasiyanı müəyyənləşdirən faktorları* | 4 |

| | | |
|---|---|---|
| | *öyrənir, innovativ təşkilati mədəniyyəti, innovasiya strategiyalarını tədqiq edir* | |
| 20 | **Keyfiyyətin idarəedilməsi**<br>*Bu fənn müxtəlif keyfiyyət idarəetmə çərçivələrinin təhlil edilməsini, komanda işini təşkil olunmasını, keyfiyyətə nəzarət dairələrinin yaradılması qaydalarını öyrənir, keyfiyyət menecmentində planlaşdırma, təşkilatlanma, kontrol proseslərini tədqiq edir.* | 4 |
| 21 | **Layihələrin idarəedilməsi**<br>*Bu fənn layihələrin yazılma qayda və üsullarını, layihələrin icra edilmə və qiymətləndirmə mexanizmlərini, layihənin icrası üçün lazım olan resursları və layihənin xərclərini, qarşılaşıla bilinəcək riskləri necə idarə etməyi öyrənir.* | 6 |
| 22 | **Mülki müdafiə**<br>*Bu fənn çərçivəsində müxtəlif qlobal FH-rın sürətlə artdığı müasir dövrdə insanın ətraf mühitində təhlükəsizliyinə və sağlamlığının qorunmasına yönəldilmiş qaydalar tədris olunur. Bu fənn həmçinin zərərli amillərin aşkara çıxarmasını və eyniləşdirməsini, insanın mühavizəsinin metod və vasitələrini, zərərli və təhlükəli amillərin minimum dərəcəyə qədər azaldılması yollarını, sülh və müharibə dövrü baş verən qəza hallarının, fəlakətlərin nəticələrini aradan qaldırmaq üçün tədbirlərin gşrülməəsi ilə bağlı məsələləri əhatə edir.* | 3 |
| | | |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər[1]**<br>*Burada olan fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisasın tədris planında əksini tapır.* | **60** |
| | | |
| | **Təcrübə** | **30** |
| 1 | Karyera planlaması | 6 |
| 2 | Yumşaq bacarıqlar (Soft skills) | 8 |
| 3 | Sərt bacarıqlar (Hard skills) | 10 |
| 4 | İstehsalat təcrübəsi / layihə | 6 |
| | | |
| | **CƏMİ** | **240** |

[1] Bu fənlər professor-müəllim heyətinin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər tələbələr üçün seçmə xarakteri daşımalı, eləcə də tələbələrin xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır.

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

***Qeyd:*** *sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə

də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

***Qeyd:*** *sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi müvafiq qaydalara uyğun olaraq qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

*7.1.* **"050408 - Menecment"** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn yüksək ixtisaslı mütəxəssislər, həmçinin müvafiq ixtisas qrupu üzrə minimum magistr dərəcəsinə sahib olan şəxslər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir. İxtisasın xüsusiyyətlərindən asılı olaraq təcrübənin təşkili qayadaları ali təhsil müəssisəsi tərəfindən müəyyən oluna bilər.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, özəl yerli, yaxud beynəlxalq təşkilat və şirkətlər və s.) təşkil oluna bilər.

8.3. Təcrübə prosesindən maksimal fayda əldə etmək üçün bu proses aşağıdakı kimi 4 mərhələdə təşkil oluna bilər: 1) tələbə karyera planlaşdırılmasını doğru tərtib etməyi öyrənməli, 2) eləcə də yumşaq və 3) sərt bacarıqlara yiyələnməli, 4) müəssisə və təşkilatlarda təşcrübə keçməli və ya onlardan daxil olan sifariş layihəsini yerinə yetirməlidir.

8.4. Tələbənin karyera planlaması və yumşaq bacarıqlar fənnlərini mənimsəməsi ona təhsil müddətində özünüinkişaf və fürsətlərin dəyərləndirməsinə imkan yaradacaq. Belə ki, "Karyera planlaması" fənni üzrə kursu mənimsəməklə tələbələr karyera barədə ilkin anlayışları, təhsil müddətində dəyərləndirilməli olan karyera inkişaf fəaliyyətlərini biləcək; karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də iş üçün doğru müraciət qaydalarını, peşəkar CV, rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacaracaq; iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını anlayacaqdır.

8.5. "Yumşaq bacarıqlar" fənni sayəsində isə tələbə vaxtın effektiv idarə edilməsini, stress menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını biləcək; problem həll etmə

və qərarvermə texnikaları, ictimaiyyət qarşısında çıxış, səlis nitqin inkişaf yolları, bədən dili və doğru təqdimat qaydalarını, eləcə də komanda işinin qurulmasını bacaracaq; liderlik haqqında prinsipləri anlayacaqdır.

8.6. Sərt bacarıqlar" fənni tələbələrə iş dünyasında ən çox istifadə edilən excel alətlərindən, layihələrin idarə edilməsində proqram təminatlarından səlis istifadəni bacaracaq; iş həyatında şifahi və yazılı kommunikasiya qaydalarını biləcək; rəqəmsal savadlılıq istiqamətindəki əsas nüansları anlayacaq, şəxsi brendin qurulması yollarını biləcəkdir.

8.7. Təcrübəni təşkili iki formada təklif olunacaqdır. Belə ki, tələbələr şirkət və qurumlarda təcrübə imkanlarını araşdıracaq və müsbət dəyərləndirilən tələbələr qarşı tərəfin razılıq sənədlərini universitetə təqdim edəcəkdir. Təhsil müddətində mənimsənilmiş karyera planlaması, sərt və yumşaq bacarıqlar sayəsində iş dünyasında uğur qazanma ehtimalları yüksək olacaqdır. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq şirkət/müəssisə/laboratoriya müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər şirkət/müəssisə/laboratoriyada, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar əks olunur.

8.8. Təcrübənin təşkili barəsində ikinci forma isə tələbələrin iş dünyasından daxil olan sifariş layihələrinin icra olunmasıdır. Belə ki, şirkət və qurumlarda ehtiyac duyulan araşdırmalar, təkmilləşmə imkanları, problemlərə həll yolları tələbə və mentor müəllimlərin birgə fəaliyyəti ilə təhlil ediləcək və layihə şəklində sifarişçilərə təqdim ediləcəkdir.

8.9. Təcrübənin qiymətləndirilməsi təqdim olunmuş layihənin dəyərləndirilməsindən sonra iş dünyası nümayəndələri tərəfindən həyata keçiriləcəkir.

## 9. Məşğulluq və ömürboyu təhsil

9.1. **"050408 - Menecment"** ixtisası üzrə Təhsil Proqramının məzunları həm özəl həm dövlət sektorunda layihə menecmenti, insan resursları menecmenti, ictimaiyyətlə əlaqələr, müştəri əlaqələrinin idarəedilməsi, əməliyyatların idarə edilməsi, satış kimi sahələrdə layihə meneceri, insan resursları meneceri, əməliyyatlar üzrə menecer, satınalmalar üzrə menecer, ictimaiyyətlə əlaqələr üzrə menecer, müştəri əlaqələri üzrə menecer peşələrində işləyə bilərlər. Eyni zamanda sahibkar, dövlət qulluqçusu kimi də fəaliyyət göstərə bilər.

9.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

9.3. **"050408 - Menecment"** ixtisası üzrə Təhsil Proqramının məzunları təhsillərini "İqtisadiyyat və idarəetmə" ixtisasları qrupuna daxil olan bütün Magistr proqramlarında davam etdirə bilərlər.

9.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri

__________________Yaqub Piriyev

"01" 07 2020-ci il

İqtisadiyyat və idarəetmə ixtisasları qrupu üzrə Dövlət Təhsil Proqramlarını hazırlayan işçi qrupun sədri

__________________Ədalət Muradov

"30" 06 2020-ci il

**Əlavə 1**

**Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri**

Ali təhsil müəssisəsi Təhsil Proqramı və hər fənn üzrə gözlənilən təlim nəticələrini müəyyən etməlidir. *Aşağıdakı cədvəllərdə ən azı 6 təlim nəticəsi sadalanmalıdır(Təhsil Proqramı və hər fənn üzrə ayrılıqda)*

| **Təhsil Proqramının təlim nəticələri (PTN)** |
|---|
| **PTN 1** Azərbaycanın yaxın tarixi ilə bağlı ümumi anlayışın formalaşdırılması və yaxın tarixə nəzər yetirilməsi, humanitar fənlərlə bağlı menecment əsaslı bacarıqlarının təkmilləşdirilməsi. |
| **PTN 2** Tələbələrin ən az 1 xarici dil bacarığının təkmilləşdirilməsi, baza kompüter biliklərinə və təməl riyazi biliklərin qazanmasının təmin edilməsi. |
| **PTN 3** İqtisadi və idarəetmə biliklərinin inkişaf etdirilməsi və ekonometrika və statistika sahələrində baza savadının verilməsi. |
| **PTN 4** Menecment sahəsində əldə edilmiş qabaqcıl nəzəri və praktik biliklərdən istifadə etmək və bu sahədə orijinal fikirləri inkişaf etdirmək. |
| **PTN 5** Menecmentin əsasını təşkil edən digər fənlərdən faydalanmaq və bu fənlər haqqında qabaqcıl biliklərə sahib olmaq. |
| **PTN 6** Menecment sahəsindəki nəzəri müzakirələri şərh edə bilmək və əlaqəli ədəbiyyata töhfə vermək. |

| **"Azərbaycan tarixi"** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindən,ilk sivilizasiya məkanlarından biri olmasını müəyyən etməyi bacarmaq. |
| **FTN 2** Azərbaycanın qədim,orta əsrlər və yeni dövrdə dövlətçiliyinin təşəkküllü şəraitini, siyasi, beynəlxalq amilləri təhlil etməyi bilmək. |
| **FTN 3** Azərbaycan xalqının təşəkkülü, formalaşmasında ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil etməyi bacarmaq. |
| **FTN 4** Azərbaycan xalqının mürəkkəb, həm də qəhrəmanlıq nümunələri ilə zəngin tarixinin mərhələlərini, hər dövrün fərqli xüsusiyyətlərini təhlil etməyi bacarmaq. |
| **FTN 5** Azərbaycan dövlətinin müasir dünyada yeri və rolunu sistemli şəkildə öyrənmək. |
| **FTN 6** Azərbaycan tarixinin inkişafının tarixi təcrübəsindən düzgün nəticələr çıxarmağı bilmək. |

| **"Azərbaycan dilində işgüzar və akademik kommunikasiya"** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Qloballaşma şəraitində Azərbaycan dili və ona göstərilən dövlət qayğısı ilə bağlı məlumatlara yiyələnmək. Dövlət dili haqqında fərman və sərəncamlar, "Ulu öndər Heydər Əliyev və Azərbaycan dili" mövzusunda təqdimatlar hazırlamağı öyrənmək. "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin məqsəd və vəzifələrini bilmək. |

| |
|---|
| Kommunikasiyanın forma və funksiyaları, kommunikasiya səviyyələri barədə biliklərə sahib çıxmaq. |
| **FTN 2** Akademik kommunikasiya prosesində köməkçi nitq hissələrinin rolunun nədən ibarət olduğunu mənimsəmək. Şifahi və yazılı kommunikasiyalar, habelə nitqə verilən tələblər: nitqin düzgünlüyü, dəqiqliyi, aydınlığı, səlisliyi, təmizliyi, yığcamlığı, sadəliyi, zənginliyi , rabitəliliyi və digər önəmli məsələlərin rolunu müasir tələblər səviyyəsində öyrənmək. |
| **FTN 3** Kommunikasiya ritorikasının nədən ibarət olduğunu, ədəbi dilin üslublarını, Azərbaycan ədəbi dilinin aktiv və passiv leksikasını bilmək. Ədəbi dil və kommunikativlik, kommunikativliyin növləri, kommunikativlikdə rabitə və kommunikativ strategiya və yaradıcılıq texnologiyalarını mənimsəmək. |
| **FTN 4** Dinləmə mədəniyyəti və dinləmənin kommunikasiya növü kimi mahiyyətini öyrənmək. Dinləmə və diqqət, dinləmə formaları, dinləmə bacarıqlarının təkmilləşdirilməsinin önəmini qavramaq. Kommunikasiya mədəniyyəti, danışıq etikası və müraciət etiketləri barədə məlumatlara yiyələnmək. Təşkil olunmuş nitqin (mühazirə, məruzə, çıxış, spontan nitq) özünəməxsusluğunu bilmək. |
| **FTN 5** Müasir Azərbaycan dilinin işgüzar üslubu barədə məlumatları və qaydaları öyrənmək. İşgüzar kommunikasiyada məktubların rolu, elektron və onlayn kommunikasiyalar barədə biliklərini zənginləşdirmək. |
| **FTN 6** Rəsmi-işgüzar sənədləri dili barədə məlumatları öyrənmək. İşgüzar kommunikasiyaların növləri və formaları, həmçinin dili və üslubu barədə məlumatlara yiyələnmək. İşgüzar kommunikasiyada Azərbaycan dilinin saflığının, orfoqrafiya qaydalarının və cümlə quruluşuna əməl olunmasının mahiyyətini öyrənmək. İşgüzar ritorika haqqında nəzəri və praktik çalışmalara sahib çıxmaq. |

| **"Xarici dildə işgüzar və akademik kommunikasiya"** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Ümumi ingilis dilində dinləmə,danışıq,oxu və yazı bacarıqlarına yiyələnmək, gündəlik söhbətləri eşidib anlama, onlara qeyri-rəsmi cavab vermə,dialoq qurma, mürəkkəb cümlələri düzgün zaman formasında şifahi işlətmə,ingilis dilində kiçik paraqrafların,qeyri-rəsmi məktubların yazılması,habelə kiçik mətnlərin oxuyub anlama,mətnlər üzrə suallara cavab vermə, A2 səviyyəsi üzrə lügətə yiyələnmək; |
| **FTN 2** Ümumi ingilis dilində B 1 səviyyədə dialoqları dinləyib anlamaq, həmin səviyyə üzrə sözlərdən istifadə etməklə mürəkkəb strukturlu tabeli və tabesiz mürəkkəb cümlələr qurmaq;150 sözlük esselər yazmaq, effektiv giriş və nəticə yazmaq bacarıqlarına yiyələnmək; rəsmi-məktubların strukturunu öyrənmək; həmin struktur üzrə işgüzar məktubun yazılışına yiyələnmək;rəsmi təqdimatların edilməsi; |
| **FTN 3** Ümumi ingilis dilində B2 səviyyəsində kinoları izləmək, kitabları oxumaq, onlar haqda şərh yazmaq, onları təhlil etmək,etdikləri təhlilləri təqdimatlar vasitəsilə dinləyiciyə çatdırmaq; |
| **FTN 4** İqtisadi terminlərin, habelə işgüzar ingilis dili lügətinə yiyələnmək,deskriptiv yazı növündən istifadə edərək qrafiklərin,cədvəllərin,faiz göstərən sirkulyar qrafiklərin akademik şifahi təsviri; 3-cü şəxsin adından istifadə edərək fikirlər irəli sürmə, ümumi akademik fikir mübadiləsi aparmaq baçarığı; |

| |
|---|
| **FTN 5** İşgüzar mühitdə sərbəst dialoq, müzakirə,diskussiya aparmaq və debat etmək bacarığına yiyələnmək;özünü professional mühitdə ingiliscə təqdimetmə bacarığının formalaşması, |
| FTN 6 2-ci və 3-cü conditional cümlələrin şifahi nitqdə düzgün işlədilməsi, vasitəli nitqdə olan dialoqların vasitəsiz nitqdə şifahi istifadə etmə bacarığının inkişafı, akademik söz bazasına yiyələnmə və onlardan şifahi nitq zamanı asanlıqla istifadə edilməsi bacarığı; rəvan ingilis dilində akademik şəkildə danışma bacarığına yiyələnmə |

| **“İqtisadiyyata giriş”** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Baza iqtisadi anlayışları və onların qarşılıqlı əlaqəsini,iqtisadi subyektlərin davranış prinsiplərini öyrənilməsi; |
| **FTN 2** İqtisadiyyatda bazar mexanizminin rolu haqqında təsəvvürə malik olacaq,iqtisadi hadisə və prosesləri məzmun və formal təhlilinin ilkin vərdişlərini öyrədilməsi; |
| **FTN 3** İqtisadiyyatda baş verən prosesləri başa düşmək üçün nəzəri bazaya malik biliklərin verilməsi; |
| **FTN 4** Bazar mexanizminin əsas elementləri olan tələb təklif qiymət rəqabət onların qarşılıqlı əlaqəsini; |
| **FTN 5** Bazar iqtisadiyyatının fəaliyyət qanunauyğunluqlarını; |
| **FTN 6** İqtisadi subyektlərin qərarların qəbul etmə mexanizmini; |

| **“Mikroiqtisadiyyat”** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Ev təsərrüfatının və firmalar tərəfindən iqtisadi qərarların necə verildiyini; |
| **FTN 2** İqtisadi subyektlər tərəfindən verilən qərarların məhsulların miqdarlarına və qiymətinə, istehsal amillərinə və resurların bölüşdürülməsinə necə təsir etməsini; |
| **FTN 3** İstehlakçı davranışlarının fəaliyyətini öyrənir |
| **FTN 4** Bazarın rəqabətlilyi baxımından əsas növləri olan: Təkmil rəqabətli bazar,inhisarçı rəqabətli bazar,oliqapolik bazar,inhisar bazarları haqqında ümumi məlumatlar əldə edilir |
| **FTN 5** İctimai nemətlərin iqtisadi mahiyəti və onların ümumi rifaha təsirinin öyrənilməsi |
| **FTN 6** Bazar iqsadi ehtiyatların səmərəli bölgüsünü təmin edə bilmədikdə , bazarın iflası zamanı iqsadiyyata dövlətin müdaxiləsinin zəruriliyini və bazar fəaliyyətinin yaxşılaşdırımasına yönəldilmiş hökümətin siyasi tədbirlərinin öyrənilməsi |

| **“Makroiqtisadiyyat”** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Makroiqtisadi sabitliyi, dayanıqlı iqtisadi artımı, ehtiyatların tam istifadə olunmasını, infilasiya və işsizlik səviyəsinin minimumlaşdırılmasını öyrənir |
| **FTN 2** Makroiqtisadi tarazlığın məcmu tələb və məcmu təklif modeli |
| **FTN 3** Makroiqtisadi tarazlığın Keynsin gəlirlər və xərclər modeli |
| **FTN 4** Vergi-büdcə və pul kredit siyasəti |
| **FTN 5** Əmtəə və pul bazarlarında makroiqtisadi tarazlıq |
| **FTN 6** Açıq və qapalı iqtisadiyyatın makroiqtisadi təhlili |

| **“Xətti cəbr və riyazi analiz”** fənni üzrə təlim nəticələri (FTN) |
|---|

| |
|---|
| **FTN 1** Xətti cəbri tənliklər sistemi, xətti fəza, xətti çevirmə və digər xətti təbiətə malik olan riyazi obyektləri öyrənməyi; |
| **FTN 2** Diferensial və inteqral hesabının köməkliyi ilə funksiya və dəyişən kəmiyyətlərin tədqiqini bilməyi; |
| **FTN 3** Qeyd edilən riyazi biliklər əsasında iqtisadi və texniki məsələlərin həllində riyazi təhlil aparmaq qabiliyyəti yaratmağı; |
| **FTN 4** Riyazi üsullardan istifadə etməyi və riyaziyyatdan istifadə olunacaq fənlərin tədrisi üçün nəzəri baza formalaşdırmağı; |
| **FTN 5** İqtisadi məsələlərin həllində effektiv-riyazi həll üsullarını seçməyi; |
| **FTN 6** Riyazi modelləşmənin əsaslarının öyrənilməsini. |

| **"Ehtimal nəzəriyyəsi və riyazi statistika"** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Təsadüfi hadisələrin və proseslərin baş verməsinin riyazi qanunauyğunluqlarını müəyyən etməyi ; |
| **FTN 2** Məlumatların yığılmasının və müşahidələrin nəticələrinin emalının riyazi üsullarını öyrətməyi; |
| **FTN 3** Öyrənilən riyazi üsullar əsasında iqtisadi və texniki məsələlərin həllində riyazi təhlil aparmaq qabiliyyətini yaratmağı; |
| **FTN 4** Riyazi modelləşmənin həyata keçirilməsində effektiv riyazi həll üsullarını seçməyi; |
| **FTN 5** Riyaziyyatdan istifadə olunacaq digər fənlərin tədrisi üçün nəzəri baza formalaşdırmağı; |
| **FTN 6** Məntiqi və alqoritmik düşüncə tərzini formalaşdırmağı. |

| **"İKT–baza computer bilikləri"** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** İnformasiyanın alınması, saxlanması və emalının əsas üsul və vasitələrinə yiyələnmək, kompüterdən informasiyanın idarə edilməsi vasitəsi kimi istifadə bacarığına və qlobal kompüter şəbəkələrində informasiya ilə işləmə qabiliyyətinə malik olmaq. |
| **FTN 2** Qoyulmuş məsələyə uyğun olaraq iqtisadi verilənlərin emalı üçün emal vasitələrini seçmə, hesablamanın nəticələrini təhlil etmə və alınmış nəticələri əsaslandırma bacarığına yiyələnmək. |
| **FTN 3** Daxili və xarici mənbələrdən istifadə edərək zəruri verilənləri toplama, təhlil etmə və analitik hesabat hazırlama bacarığına yiyələnmək. |
| **FTN 4** Analitik və tədqiqat məsələlərinin həlli üçün müasir texniki vasitələrdən və informasiya texnologiyalarından istifadə bacarığına malik olmaq. |
| **FTN 5** Kommunikativ məsələlərin həlli, İnternetdə axtarış və arayış sistemləri vasitəsilə peşə əhəmiyyətli informasiyanın axtarışı və seçimi vasitələrindən və informasiya texnologiyalarından istifadə qabiliyyətinə malik olmaq. |
| **FTN 6** Təlim və özünü təlim proseslərində iştirak üçün İKT vasitələrindən istifadə imkanlarına malik olmaq. |

| **"Statistika"** fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| **FTN 1** Praktiki vəzifələrin həlli üçün zəruri olan məlumatların toplanması, işlənməsi və təhlilinin statistik metodologiyasını mənimsəmək. |
| **FTN 2** Statistik məlumatların toplanması, saxlanması, ilkin işlənməsinin üsul və metodlarını seçməyi və onların tətbiqini, müasir informasiya mənbələri ilə işləməyi bacarmaq |
| **FTN 3** Təsviri statistikanın metodları əsasında toplanmış statistik məlumatların ümumiləşdirilməsini, təhlil məqsədilə əlverişli formada təqdim etməyi bacarmaq. |
| **FTN 4** İnformasiya əldə edilməsinin mühüm vasitəsi kimi statistik göstəricilərin hesablanmasını, onların izahını, optimal qərarların qəbul edilməsi üçün nəticələr formalaşdırmağı bacarmaq. |
| **FTN 5** Statistik metodologiyanın praktiki tətbiqini, uçot və statistikanın beynəlxalq standartlarına və qaydalarına uyğun olaraq istənilən həcmdə məlumatlarla işləməyi, yüksək statistik texnologiyaların tətbiqini, düzgün və əsaslandırılmış nəticələri formalaşdırmağı bacarmaq |
| **FTN 6** İnformasiyanın idarəedilməsinin mühüm vasitəsi kimi informasiya-kommunikasiya texnologiyalarından istifadəni bacarmaq. |

| **"Ekonometrika"** fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| **FTN 1** İqtisadi məsələnin formalaşdırılması və fərziyyələrin qurulması, iqtisadi məsələni təsvir etmək üçün zəruri olan göstəricilər sisteminin seçilməsi bacarıqlarını əldə etmək |
| **FTN 2** İzaholunan və izahedici dəyişənlər üçün zəruri olan statistik məlumatların toplanması, ilkin emalı və bu istiqamətdə zəruri biliklərə yiyələnmək |
| **FTN 3** Modelin spesifikasiyasının qurulması, iqtisadi göstəricilər arasında əlaqənin formasının nəzəri əsaslandırılmasını bacarmaq |
| **FTN 4** Ekonometrik modelin parametrlərinin və bütövlükdə modelin qiymətləndirilməsi, müvafiq testlərin realizə olunmasında müasir tətbiqi proqram paketlərindən istifadə bacarıqlarına yiyələnmək |
| **FTN 5** İzaholunan iqtisadi göstəricilərin proqnoz ssenarilərinin verilməsi və onlardan istifadə mexanizmlərinin hazırlanması bacarığına yiyələnmək |
| **FTN 6** Ekonometrik modellərin nəticələrinin praktiki qərarların qəbul edilməsi üçün formalaşdırılması bacarıqlarına yiyələnmək |

| **"Menecment"** fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| **FTN 1** Menecmentin əsas funksiyalarını və menecerlərin rollarını təsvir etmək |
| **FTN 2** Menecerlərin planlaşdırma prosesini təşkilatın missiyası, vizyonu və dəyərləri ilə necə uyğunlaşdırdığını izah etmək |
| **FTN 3** Ümumi təşkilati quruluşları və hər birinin üstünlük və mənfi cəhətlərini müəyyənləşdimək |
| **FTN 4** Təşkilatlardakı qrup və komanda dinamikasını anlamaq |
| **FTN 5** Təşkilat mədəniyyətini və müxtəlifliyin faydalarını anlamak |
| **FTN 6** Güclü və zəif liderliyi və liderlik növlərini tanımaq |

| “Biznesin əsasları” fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| **FTN 1** Biznes planın hazırlanması, müəssisənin qurulması, biznesdə tərəfdaşlıq əlaqələrinin qurulması, optimal təşkilatı strukturunun və biznesin xüsusiyyətlərinə uyğun infranstrukturun müəyyənləşdirilməsi bacarmaq. Biznesin effektiv idarəedilməsi üçün zəruri olan əsas anlayışlar və alətləri bilmək; |
| **FTN 2** Müəssisənin strukturunda yer alan əsas və köməkçi funksiyalarının iş prinsipləri ilə bağlı məsələləri bilmək; |
| **FTN 3** İdarəetmə metod və növlərini öyrənmək və onun funksiyalarının effektiv icrasını həyata keçirə bilmək; |
| **FTN 4** İstehsal, istehsal prosesi, istehsal sistemləri, müasir istehsalın xüsusiyyətləri və idarə edilməsinə bələd olmaq, biznesin subyektlərinin fasiləsiz işləmələri üçün zəruri xammal-material və yarımfabrikatların planlaşdırılmasını bacarmaq. |
| **FTN 5** Mühit amillərinin müəssisənin fəaliyyəti üzərindəki təsirlərini müəyyənləşdirə bilmək və bu təsirlərə adekvat cavab verə bilmək; |
| **FTN 6** Biznes proseslərinin analiz etmək, qiymətlədnrimək və idarə etmək. |

| “Koorporativ idarəetmə” fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| **FTN 1** Korporativ idarəetmənin fəaliyyət sahəsini, tədqiq etdiyi müxtəlif problemləri və bu problemlərin bir-biri ilə əlaqələrini müəyyənləşdirə bilmək. |
| **FTN 2** Korporativ idarəetmə mexanizmləri haqqında kifayət qədər məlumata sahib olmaq |
| **FTN 3** Korporativ idarəetmənin firma fəaliyyətinə təsirini araşdıra bilmək |
| **FTN 4** Korporativ İdarəetmə prinsiplərini və Korporativ idarəetməyə uyğunluq reytinqi tətbiqlərini icra edə bilmə |
| **FTN 5** Bir şirkətin korporativ idarəetməyə uyğunluq hesabatını hazırlaya bilmə |
| **FTN 6** Korporativ idarəetmədə üstün metodları tətbiq edə bilmək |

| “İnsan resurslarının idarəedilməsi” fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| **FTN 1** “İnsan resurslarının idarəedilməsinin” nə olduğu, məqsəd və hədəfləri, əhəmiyyəti, kadrların idarəedilməsi anlayışından fərqləri, təşkilatı struktur içərisindəki yeri və s. haqqında bilikləri qazanmaq; |
| **FTN 2** Yüksək ixtisaslı kadrların cəlb edilməsi və seçilməsi funksiyasının effektivliyini təmin etmək məqsədi ilə iş analizi, iş dizaynı və insan resurslarının planlanması haqqında dolğun məlumat sahibi olmaq; |
| **FTN 3** İşçilərin müəssisələrdə saxlanılması və inkişaf etdirilməsi məqsədi ilə treyninq və inkişaf, karyeranın idarəedilməsi, istedadların idarə edilməsi, motivasiya və s. funksiyaların işləmə prinsiplərini bilmək. |
| **FTN 4** Performansının qiymətləndirilməsi, ödəniş sistemi və işlərin dərəcələndirilməsi sistemlərinin iş prinsiplərinin bacarılması. |
| **FTN 5** İRİE-si sahəsində tətbiq olunan informasiya kommunikasiya texnologiyaları və elektron idarəetmə sistemləri haqqında məlumatlı olmaq; |
| **FTN 6** İRİE funksiyalarının analizini həyata keçirə biləcək və iş həyatında da bunları tətbiq edə biləcək səviyyədə olmaq. |

| “Əməliyyatların idarəedilməsi” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Biznes sahəsindəki anlayışları və məlumatları elmi metodlarla təhlil etmək və bununla da problemlərin müəyyənləşdirilməsi və təhlili üçün tədqiqat əsaslı həllər təklif etmək bacarığının əldə edilməsi. |
| **FTN 2** Peşəkar İngilis dili bilikləri ilə biznesin idarə edilməsi, logistika və nəqliyyat sahələrində mövcud və inkişaf etməkdə olan tendensiyaları izləmək imkanının əldə edilməsi. |
| **FTN 3** İstehsalçı və ticarət şirkətlərinin beynəlxalq əlaqələrini qorumaq və saxlamaq üçün bilik və bacarıqlara yiyələnmək. |
| **FTN 4** İstehsalçı və kommersiya şirkətlərinin tədarük zənciri proseslərini planlaşdırmaq, əlaqələndirmək, icra etmək və nəzarət etmək üçün biliklərə malik olma. |
| **FTN 5** Logistika və nəqliyyat şirkətlərində menecer olmaq üçün bilik və bacarıqlara sahib olma. |
| **FTN 6** Tədarük zənciri və logistika proseslərinin planlaşdırılması və idarə olunması ilə əlaqəli informasiya texnologiyalarından istifadə etmək imkanına malik olma. |

| “Strateji menecment” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Strategiyayla əlaqədar əsas termin və anlayışları (strategiya, missiya, viziya, məqsəd, politika və s.) öyrənmək. Şirkətin strategiyasının təməlləri olan xarici (makro mühit, sektor mühiti və əsas rəqiblərlə əlaqədar şirkəti gözləyən fürsət və təhlükələr) və daxili (şirkətin rəqiblərlə müqayisədə güclü və zəif yönləri) mühit faktorlarının izlənməsi, qiymətləndirilməsi və strategiya hazırlanmasında istifadəsini metodlarını (EFE və IFE matrisləri, dəyər zinciri analizi) öyrənmək. |
| **FTN 2** Təşkilati və strateji iş vahidi səviyyəsində tətbiq edilə biləcək strategiyaları öyrənmək. Təşkilati strategiyalar: İnteqrasiya strategiyaları, İntensiv strategiyalar, Çeşidləndirmə strategiyaları, Müdafiə strategiyaları. Stratejik iş vahidi səviyyəsindəki strategiyalar: Maya dəyəri liderliyi, Fərqliləşdirmə və Mövqelənmə strategiyaları |
| **FTN 3** Xarici və daxili mühit analizinin nəticələri çərçivəsində strategiyaların formalaşdırılması metodlarını (SWOT analizi, BCG matrisi, SPACE matrisi, IE matrisi) və strategiyanın seçilməsi metodlarını (QSPM matrisi) öyrənmək. |
| **FTN 4** Formalaşdırılan strategiyaların icra edilməsi istiqamətində taktikləri öyrətmək. Bu məqsədlə şirkətinq ayrı ayrı funksiyalarının (menecment, istehsal, marketinq, finans və mühasibat, insan resurslarının idarəedilməsi, araşdırma və gəlişdirmə, menecment informasiya sistemləri) strategiyanın icra edilməsindəki yeri və önəmini öyrənmək. |
| **FTN 5** İcra edilən strategiyaların şirkətin məqasədlərinə nə dərəcədə cavab verdiyini analiz etməyi, strategiyadakı əksiklikləri ortaya çıxarmağı öyrənmək. |
| **FTN 6** Şirkətin beynəlxalq mühitdə rəqabət edə bilməsinin və uğur qazanmasının təməllərini öyrənmək. Strateji idarəetmə prosesinin sosial məsuliyyət və etik dəyərlər içərisində həyata keçirilməsinin əsas prinsiplərini öyrənmək. Bir biznes hadisəsinin (case study) strateji menecment yanaşması ilə təhlil etməyi öyrənmək. |

| **"Innovasiya menecmenti"** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Müstəqil tədqiqat aparmaq üçün biliyə, nizam-intizama və məsuliyyətə malik olma və mövzu ilə əlaqədar geniş tədqiqat hesabatı hazırlaya bilər. |
| **FTN 2** Bu, müəssisələrdə komanda və layihə işinə səmərəli töhfə verə biləcəyini, lazımi məsuliyyəti götürdüyünü və lider rolunu oynamağa meylli olduğunu göstərə bilər. |
| **FTN 3** Təşkilat üçün məqsəd və vəzifələr təyin edə bilər və ya bu və ya fəaliyyətin yaxşılaşdırılması üçün layihələr hazırlaya və planlaşdıra bilər. |
| **FTN 4** Sürətlə dəyişən biznes, işgüzar elm sahəsində və onun alt bölmələrində (idarəetmə və təşkilatçılıq, mühasibat və maliyyələşdirmə, say metodları, istehsal və marketinq) əldə olunan bilikləri tənqidi dəyərləndirmə, sahib olduğu məlumatların adekvatlığını və öyrənmə ehtiyaclarını müəyyənləşdirə bilmə və çatışmazlıqlarını doldurmaq üçün təliminin istiqamətləndirilə bilməsi. |
| **FTN 5** Sahibkarlıq ideyalarını inkişaf etdirilməsi, bu fikirlərin sistematik şəkildə hazırlanması və tətbiq edilməsi. |
| **FTN 6** Biznesin idarə edilməsi sahəsində və onun alt sahələrində (idarəetmə və təşkilatçılıq, mühasibat və maliyyə, say metodları, istehsal və marketinq) qlobal dinamikanı başa düşmək, izləmək və şərh etmək; beynəlxalq institusional səviyyədə yazılı və şifahi şəkildə ünsiyyət qura bilən İngilis dilinin öyrənilməsi. |

| **"Keyfiyyətin idarəedilməsi"** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Təşkilat daxilində keyfiyyət menecmenti və əhəmiyyətini mənimsənilməsi |
| **FTN 2** Müxtəlif keyfiyyət idarəetmə çərçivələrini izah etmək və təhlil etmək bacarığı |
| **FTN 3** Cari məsələlər və inkişaflar da daxil olmaqla keyfiyyət menecmentindəki strateji problemləri tənqidi təhlil edib və keyfiyyətin icra planlarını tərtib etmək və qiymətləndirmək |
| **FTN 4** Prosesin analizinə ən optimal yanaşmanı seçib fəaliyyətlərini izah edə bilmək |
| **FTN 5** Keyfiyyət sistemi sənədlərini anlamaq bacarığı |
| **FTN 6** Keyfiyyətə nəzarət dairələri yaratmaq bacarığı |

| **"Layihələrin idarəedilməsi"** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Layihə yazmaq, onu icra etmək və qiymətləndirmək qabiliyyətinə sahib olmaq |
| **FTN 2** Layihələrin idarə edilməsi üçün lazım olan komanda işini təşkil etmək |
| **FTN 3** Layihə üçün tələb olunan mənbələri necə müəyyənləşdirməyi, resursları necə idarə etməyi və layihənin xərclərini necə idarə etməyi öyrənmək. |
| **FTN 4** Layihədəki riskləri müəyyənləşdirməyi, riskləri necə idarə etməyi, onların qarşısını necə almağı və onlardan faydalanmağı bilmək. |
| **FTN 5** Layihə irəlilədikcə planlaşdırılan ilə gerçəkləşdirilənin uyğunluğunun yoxlanılması və layihəninin keyfiyyət tələblərinə cavab verib – vermədiyini müəyyənləşdirmək. |
| **FTN 6** Layihə meneceri üçün lazım olan xüsusiyyətləri əldə etmə |

| “**Mülki müdafiə**” fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| **FTN 1** Fövqəladə hadisələrin təsnifatı, onların tam xarakteristikası, Mülki müdafiənin yaranma tarixi, onun FH-da rolu və vəzifələrini öyrənmək. Mülki müdafiə ilə bağlı Nazirlər kabinetinin Qərarları və qanunlarını bilmək; |
| **FTN 2** Müasir dövürdə sülh və müharibə dövürlərində Mülki müdafiənin rolunu və vəzifələrini bilmək. Texnogen FH-də hadisələrin qarşısının alınması yolları, bakterioloji, kimyəvi və radiasiya şəraitində əhalinin davranış qaydalarını, mahiyyətini bilmək. Karantin, observasiya şəraitində, sanitar təmizliyi, ərazinin dezinfeksiyası, kimyəvi zəhərlənmə ocaqlarındadeqazasiya, radiasiya şəraitində isə dezaktivasiya üsullarını bilmək; |
| **FTN 3** Fövqəladə hallar komissiyası. Fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün Dövlət sisteminin rolu və vəzifələrini bilmək. Hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yaradılmasını öyrənmək; |
| **FTN 4** Fövqəladəhallar zamanı əhalinin mühafizəsinin təşkilini həyata keçirmək. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bilmək.<br>Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini bacarmaq. Fövqəladə hallar zamanı əhalinin səmərəli mühafizəsinin təşkilini bacarmaq. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bacarmaq. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini həyata keçirmək; |
| **FTN 5** Mülki müdafiə kəşfiyyatının təşkili və aparılması qaydalarını bilmək. Radiasiya və kimyəvi kəşfiyyat cihazlarını işlətməyi bacarmaq. Mülki müdafə üzrə idaretmə, mülki müdafiə qərargahları və onların əsas vəzifələrini bilmək; |
| **FTN 6** Mülki müdafiə tədbirlərinin planlaşdırılması və həyata keçirilməsini bacarmaq. FH-in nəticələrinin aradan qaldırılması yollarını bilmək. Qəza- xilasetmə və digər təxirəsalınmaz işlərin dağıntı ocaqlarında təşkil etmək və aparılmasını həyata keçirmək. Əhalinin mülki müdafiə sahəsində hazırlanmasının prinsiplərini öyrənmək.<br>Fövqəladə hadisələr zamanı dağıntı ərazisində ilk tibbi yardım aparmağı bacarmaq. |